***Ermənistan terrorçu ölkədir. Birinci Qarabağ müharibəsi dönəmində bizə qarşı onlarca terror aktı törədilmişdir – metrolarda, avtobuslarda, gəmilərdə. Hesab edirəm ki, erməni terroru dünyada məşhur olan bir mənfur fakt kimi dünya tərəfindən qəbul edilməlidir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



# Ağdaban faciəsi: Xatırla, unutma!

***Azərbaycan xalqı 30–32 il ərzində bəlkə də dünyada heç bir xalqın yaşamadığı dramatik tale ilə üzləşmiş, sonda bütün bu sınaqlardan başıuca çıxmağı bacarmışdır. Biz ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyimizi bərpa etmiş, elə həmin dövrdə, heç müstəqilliyin, azadlığın nəşəsini, həyəcanını yaşamağa macal tapmamış torpaqlarımızın 20 faizə qədər hissəsini itirmişik. Bundan 30 il sonra Azərbaycan öz qüdrətini göstərərək, itirdiyi torpaqları işğaldan azad etmişdir. Tarix boyu çox müharibələr olub. Ömrü bir bayramdan digərinə yetişməyən dövlətlər, əsrlərə sığmayan imperiyalar və qanlı savaşlar görmüş planetimiz ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində faciə sözünün həqiqi mahiyyətini anlamışdır. Son iki əsrin müxtəlif dönəmlərində xalqımızın başına dürlü müsibətlər açmış ermənilər SSRİ-nin zəifləməsi ilə gözünü Azərbaycan torpaqlarına dikmiş, el-obamızda amansız faciələr törətmişlər.***

1905–1907-ci, 1918–1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və başqa əzəli torpaqlarımızda dinc əhalimiz soyqırımına məruz qalıb. Onların bu torpaqlarda törətdikləri qətliamları sübut edən faktlar zaman keçdikcə aşkara çıxır. Belə ki, müxtəlif bölgələrdə aşkara çıxan kütləvi məzarlıqlar bir daha sübut edir ki, ermənilər tarix boyu barbar xislətdə olublar. Yeri gəlmişkən, bu yaxınlarda Xocalının Fərrux kəndi işğaldan azad edilmiş, burada kütləvi məzaqlıqlar tapılmışdır. Aşkarlanan insan sümükləri, I Qarabağ müharibəsi zamanı öldürülən azərbaycanlılara aiddir. Bu da ondan xəbər verir ki, bu ərazilərdə tədqiqatlar aparılsa hələ gizli qalan çox hadisənin üstü açılacaq. Ermənilər isə qırt toyuq kimi həqiqətləri örtməyə çalışırlar.

Ümummilli liderimiz Heydər Əliyev bu hadisələrdən danışarkən dönə-dönə qeyd edirdi ki, tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər: "Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir."

Ötən əsrin sonlarında qana susayan barbarlar təkcə öz torpağını qorumağa çalışan silahlı dəstələrlə deyil, həm də dinc əhali ilə savaşmışlar. Onlar yaddaşlarının dərinliklərində sirr kimi saxladıqları türk qorxusunu silahsız insanları – körpələri, uşaqları, qadınları, qocaları öldürməklə, işgəncələr verməklə boğmağa çalışmışlar. Birinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın 20 faizə qədəri işğal edilmişdir. İşğal zamanı 20 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox sakin yaralanmış, 50 mindən çox insan əlil olmuş, 4 mindən çox həmyerlimiz isə əsir və girov götürülmüşdür. Bir milyondan artıq vətəndaşımız ata-baba yurdundan didərgin düşmüşdür.

Ermənilər bu əraziləri təkcə işğal etmir, qəlblərindəki türk xofunu çıxarmaq, bu torpaqlardan izlərimizi silmək üçün görünməmiş vəhşiliklər törədir, kəndləri yaxıb-talayır, dağıdıb-tökürdülər. Xocalı soyqırımı dünya tarixinin ən qanlı faciələrindən biridir. 26 fevral 1992-ci ildə Xocalıda törədilən vəhşiliklər bir gecəyə, bir kəndə, bir ömrə də sığmayacaq hadisələr idi. Gecədən-sübhə ailəsini, nəslini, evini-eşiyini, canını, sağlamlığını və ağlını itirən soydaşlarımızın yerə-göyə sığmayan ahnaləsi daş olub ermənilərin başına yağmalı idi. Yağdı da. Törətdikləri əməllərdən vicdan əzabı çəkməyən canilərin orada-burada danışıb sinə qabartdıqları hadisələr kabus olub yuxularına haram qatmasa da, 30 il sonra Azərbaycan Ordusunun ayaq səsi ilə saxta əhvalatlarla uydurduqları qəhrəmanlıq mifləri ərşə çəkildi. Bir qərinədir qaçıb-gizləndikləri həqiqətlər gəlib boğazlarına ilişdi. Ədalətli müharibədə biabırçı məğlubiyyətin acısını iliklərinə qədər hiss etdilər.

Biz qalib xalqıq. Lakin ulu öndərin dediyi kimi, xalqımızın başına gətirilən müsibətləri əsla unutmamalı, hər zaman xatırlamalıyıq. Xalqımızın başına gətirilən müsibətli faciələrdən biri də Ağdaban qətliamıdır. Aprelin 8-də Ağdaban faciəsinin 30 ili tamam olur. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə erməni silahlı birləşmələri "Dağlıq Qarabağ"dakı erməni quldur dəstələrinin köməyilə Kəlbəcərin Ağdaban və Çayqovuşan kəndlərinə hücum etmişlər. Bu hadisədən xəbərsiz olan kənd əhalisi, sözün həqiqi mənasında, başıaçıq-ayaqyalın qarlı meşələrə, dağlara qaçmağa, canlarını qurtarmağa çalışmışdır. Burada müdafiə məqsədilə yaradılan kiçik dəstələr ermənilər və onların havadarları tərəfindən öldürülmüş, kəndlər tamamilə müdafiəsiz qalmışdı. Gözlərini qan bürüyən haylar Ağdaban kəndinə girmiş, 130-dan çox evi tamamilə yandırıb-yaxmışlar. Təkcə Ağdaban kəndində 800-ə yaxın insan xüsusi amansızlıqla, indiyə qədər görünməmiş qəddar üsullarla işgəncələrə məruz qalmışdır. 70-ə yaxın şəxs amansızcasına qətlə yetirilmiş, 8 qoca, 2 azyaşlı və 7 qadın diri-diri yandırılmışdır. Ağdaban faciəsi zamanı 2 nəfər itkin düşmüş, 12 nəfər ağır bədən xəsarəti almış, 5 nəfər isə girov götürülmüşdür. Kəlbəcər rayonunun işğalı da məhz Ağdaban kəndindən başlamışdır. 1993-cü il martın 27-də erməni caniləri Ağdabana ikinci dəfə hücum etmiş, onu yer üzündən silmişlər.

Ağdabanda baş verənlər təkcə bu kəndə və ya Kəlbəcər rayonuna deyil, bütün Azərbaycana qarşı başlanan böyük işğalçılıq planının anonsu idi. O vaxt kəndin ermənilərin əlində qalması daha böyük fəlakətlərə yol açа bilərdi.

Biz gələcəyə, uğura, inkişafa gedən yolda addımlayarkən keçmişimizi, başımıza gətirilən müsibətləri unutmamalı, daim xatırlatmalı, gələcək nəsillərə də çatdırmalıyıq. Çatdırmalıyıq ki, bu müsibətlər bir daha təkrarlanmasın. Biz onunla da fəxr edirik ki, Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Ağdabanı yenidən öz sahiblərinə – soydaşlarımıza qaytarmağa nail oldu.

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***